

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 202 (23.364)

*26 oktyabr 2019-cu il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Oktyabrın 25-də Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü işə başlayıb.

"Bandunq Prinsiplərini rəhbər tutmaqla müasir dünyanın çağırışlarına birgə və adekvat cavab verilməsini təmin etmək" mövzusunda keçirilən XVIII Zirvə Görüşündə 60-a yaxın ölkənin dövlət və hökumət başçıları, həmçinin beynəlxalq təşkilatların rəhbərləri iştirak edirlər. Ümumilikdə, Zirvə Görüşünə 160-a yaxın ölkə və beynəlxalq təşkilatın nümayəndələri qatılıblar.

Qoşulmama Hərəkatına sədrlik Azərbaycana təhvil verilib.

Qoşulmama Hərəkatının sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə Görüşündə nitq söyləyib.

* * *

Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının Bakıda keçirilən XVIII Zirvə Görüşü işini ümumi debatlarla davam etdirib.

Debatlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilib.

* * *

Oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olub.




# Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmişdir





Oktyabrın 25-də Naxçıvan Muxtar Respublikasının ali və orta ixtisas təhsili müəssisələrinə qəbulun nəticələri və qarşıda duran vəzifələr barədə müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəni açaraq demişdir ki, Azərbaycanda təhsilə qayğının əsası ötən əsrin 70-ci illərində ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə qoyulmuş, gənclərin təhsil alması üçün hərtərəfli şərait yaradılmışdır. Ulu öndər ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra da təhsilin inkişafı qayğısına qalmışdır. Bu gün dahi şəxsiyyətin təhsil strategiyasının uğurla davam etdirilməsinin nəticəsidir ki, muxtar respublikada müasir təhsil şəbəkəsi formalaşdırılmışdır. İstər ümumtəhsil, istərsə də orta ixtisas və ali məktəblər üçün müasir maddi-texniki bazaya malik olan binalar istifadəyə verilmiş, yeni fakültələr və ixtisaslar açılmış, pedaqoji kollektiv formalaşdırılmışdır. Yaradılan şəraitin nəticəsidir ki, muxtar respublikanın bir çox istiqamətlər üzrə təhsil göstəriciləri ölkə üzrə ümumi orta göstəricidən yüksəkdir. Lakin nəzərə almaq lazımdır ki, təhsilin inkişafında əsas məqsəd tələbata uyğun kadr potensialının yaradılmasıdır. Təhsilli, vətənpərvər və peşə sahibi olan gənclərin hazırlanması qarşıda duran əsas vəzifədir. Ona görə də yaradılan imkanlardan səmərəli istifadə olunmalı, ali və orta ixtisas məktəblərinə qəbul diqqətdə saxlanılmalıdır.

Müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid, Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov, Naxçıvan Dövlət Universitetinin rektoru Saleh Məhərrəmov, Naxçıvan Müəllimlər İnstitutunun rektoru Elbrus İsayev və "Naxçıvan" Universitetinin rektoru İsmayıl Əliyev müzakirə olunan məsələ ilə bağlı çıxış etmişlər.

Naxçıvan Tibb Kollecinin direktoru Sona Vəliyeva, Naxçıvan Musiqi Kollecinin direktoru Günay Əliyeva və Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanov muxtar respublikanın orta ixtisas məktəblərinə qəbulla bağlı məlumat vermişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: Bu gün ölkə Prezidenti cənab İlham Əliyev təhsilə Azərbaycanın gələcəyini müəyyən edən prioritet sahə kimi yüksək dəyər verir, iqtisadi potensialın insan kapitalına çevrilməsini strateji istiqamət olaraq qarşıya qoyur. Bu siyasət təhsilə yeni və innovativ yanaşma tələb edir. Ölkəmizdə həyata keçirilən təhsil siyasəti insanlara yeni texnologiyaları çevik mənimsəmək, əmək bazarında və həyatda layiqli yer tutmaq, cəmiyyətdə gedən proseslərə düzgün mövqe göstərmək imkanı yaradır. Naxçıvan Muxtar Respublikasında böyük potensiala malik olan təhsil mühiti inkişafın yeni mərhələsindədir. 212 ümumtəhsil məktəbi, 3 ali və 4 orta ixtisas təhsili müəssisəsi və Heydər Əliyev adına Hərbi Lisey təhsilin bütün pillələri üzrə kadr hazırlığına və əhalinin təhsil səviyyəsinin yüksəlməsinə xidmət edir.

Ali Məclisin Sədri demişdir: Bu günədək muxtar respublikada 200-dən artıq ümumtəhsil məktəbi daxil olmaqla, 300-dən çox təhsil müəssisəsi tikinti və yenidənqurmadan sonra istifadəyə verilmiş, təhsildə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi genişləndirilmiş, məktəblər ən müasir avadanlıqlarla təmin olunmuşlar. Muxtar respublikanın ümumtəhsil məktəblərində 50 min 590 şagirdin təhsili ilə 6 min 751 müəllim məşğul olur. Ümumtəhsil məktəblərinin informasiya təminatı 6000-ə yaxın kompüter, 650-dək elektron lövhə, laboratoriyalar, fənn kabinələri və digər texniki avadanlıqları əhatə edir. Məktəb kitabxanaları 3 milyona yaxın dərslik, 600 mindən çox latın qrafikası ilə nəşr olunmuş bədii ədəbiyyatla təmin olunub. Görülən tədbirlər təhsilin müasir inkişafına, eyni zamanda güclü intellektual və kadr potensialının hazırlanmasına şərait yaradır. Bu səbəbdən ötən tədris ilində muxtar respublika üzrə buraxılış imtahanlarının nəticələri Azərbaycan üzrə orta statistik göstəricidən yüksək olmuşdur.

Təhsil Nazirliyi ümumtəhsil məktəblərində təhsilin səviyyəsinin yeni standartlar çərçivəsində qurulmasını təmin etməli, müəllim hazırlığı işinə diqqəti artırmalı, bilikli, dünyagörüşlü və vətənpərvər gənclər hazırlamalıdır. Həmçinin gənclərin peşə təhsilinə marağının artırılması üçün müvafiq tədbirlər görməli, onların asudə vaxtlarının səmərəli təşkili üçün dərnək və kurslara cəlb edilmələrinə diqqəti artırmalıdır. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən orta ixtisas təhsili müəssisələrində 4 istiqamət – texniki, hüquq-mühafizə, tibb və musiqi sahələri üzrə kadr hazırlığı həyata keçirilir. Hazırda orta ixtisas təhsili müəssisələrində 1721 tələbə təhsil alır ki, onların təhsili ilə 360 müəllim məşğul olur.

Ali Məclisin Sədri demişdir: Ötən tədris ilindən subbakalavrlara ali təhsil müəssisələrinə imtahansız seçim imkanı verilməsini nəzərə alaraq orta ixtisas təhsili müəssisələri kadr hazırlığı işinə məsuliyyətlə yanaşmalı, təhsilin keyfiyyətinin artırılmasına çalışmalıdırlar. Yeni dövrün universitetləri təhsil ənənələrini yaşadan, elmi-texniki tərəqqi əsrinin tələblərinə cavab verən təhsil ocağı kimi dövlətin intellekt mərkəzi olmalıdır. İnkişaf etmiş ali təhsil müəssisələrinin əsas göstəricisi onun müasir standartlara cavab verən təhsil səviyyəsi, güclü infrastrukturu, beynəlxalq layihələrdə iştirakı və reytinq cədvəllərindəki mövqeyi olmalıdır. Reytinq cədvəllərində yer tutmağın əsas meyarlarından biri də əcnəbi tələbələrin təhsil üçün həmin universitetləri seçməsidir. Muxtar respublikada fəaliyyət göstərən 3 ali təhsil müəssisəsində təhsil alan 8800 tələbənin 825-i əcnəbidir. Bu səbəbdən Naxçıvan Muxtar Respublikasının ali təhsil müəssisələri təhsil meyarlarını müəyyən edən beynəlxalq reytinq cədvəllərində yer qazanmaq üçün müraciət etməli, dünya təhsilinə və elminə inteqrasiyanı əsas vəzifə kimi qarşıya qoymalıdırlar.

Qeyd olunmuşdur ki, universitetlərin əsas fəaliyyət istiqaməti tədris və təhsili əhatə etsə də, onlar muxtar respublikada elmin inkişafına mühüm töhfələr verməli, kafedralarda elmi-tədqiqat işlərinin səviyyəsi dövrün tələblərinə uyğun aparılmalıdır. Magistr və doktorluq proqramlarının istiqaməti muxtar respublikanın elmi problem sahələrini əhatə etməli, qəbul planları qanunvericiliyə uyğun, ehtiyaclar nəzərə alınmaqla hazırlanmalıdır. Ali təhsil müəssisələrində fəaliyyət göstərən Dissertasiya şuraları dissertasiyaların müdafiəsinə qoyulan tələblərə tam cavab verməli, müdafiələrin yüksək səviyyədə təşkilinə, elmi nəticələrin obyektiv qiymətləndirilməsinə nail olmalıdırlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondu ali təhsil müəssisələri ilə birlikdə elmin inkişafına xidmət edən tədbirlər həyata keçirməli, layihələr hazırlamalı və təqdim etməlidirlər. Ali təhsil müəssisələri universitetlərarası əməkdaşlığa və elmi mübadiləyə geniş yer verməli, birgə konfransların təşkili, ortaq elmi nəşrlərin hazırlanması, tələbə və müəllim mobilliyi prioritet istiqamət kimi müəyyənləşməlidir.

Tapşırılmışdır ki, təhsil müəssisələri abituriyentlərin ixtisas seçimi məsələsinə ciddi yanaşmalı, muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələri ixtisas seçimlərində üstünlük təşkil etməlidir. 2018-ci ildə 2803 məzundan 1373 nəfəri muxtar respublikadakı ali və orta ixtisas təhsili məktəblərini seçmişdirsə, 2019-cu ildə 2734 məzundan 1355 nəfəri muxtar respublika ali və orta ixtisas təhsili məktəblərini seçib. Buna görə də abituriyent və magistr hazırlığı ilə bağlı nəşr olunan jurnallarda, o cümlədən internet

*Ardı 2-ci səhifədə*

səhifələrində Naxçıvan Muxtar Respublikasındakı ali və orta ixtisas təhsili müəssisələrinin təbliğat işi genişləndirilməli, videoçarxların və çap materiallarının yayımına diqqət artırılmalıdır. Artıq 5 ildir ki, ali və orta ixtisas təhsili məktəblərinin elmi dərəcəli müəllimlərinin ümumtəhsil məktəblərində nümunəvi dərsləri təşkil edilir. Bu, ixtisas seçimini tənzimləmək üçün də əlavə imkandır. Nümunəvi dərs keçən müəllimlər şagirdlərdə elmi biliklərə maraq oyatmalı, gənclərə gələcək ixtisas seçimlərində istiqamət verməlidirlər.

Ali Məclisin Sədri demişdir: Təhsilin inkişafına təsir edən əsas amillərdən biri də təhsil müəssisələrindəki tədrisin səviyyəsidir. Buna görə də ali və orta ixtisas təhsili müəssisələrində tədrisin kredit sisteminə uyğun qurulması qaydalarına riayət edilməli, tədrisdə informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə geniş yer verilməli, elektron tədris vəsaitlərinin hazırlanması, elektron kitabxanaların bazasının zənginləşdirilməsinə diqqət artırılmalıdır. Kadr hazırlığı prosesində təhsil müəssisələri hami təşkilatlarla birgə tədris və istehsalat təcrübələrinin təşkilinə və onlardan səmərəli istifadəyə üstünlük verməlidirlər. Təhsil müəssisələrinin əsas funksiyası yeni biliklərin yaradılması və onların sosial-iqtisadi həyatın bütün sahələrində tətbiq edilməsidir. Elmi-texniki kəşflərin sürətli artımı və onlardan xidmət sahələrində geniş istifadə edilməsi müasir cəmiyyətdə elmi inkişafın səmərəliliyi baxımından mühüm əhəmiyyət kəsb edir. İxtiralar, innovasiyalar və startap layihələri informasiyalı cəmiyyətin tələblərinə və fəaliyyətinin aparıcı istiqamətinə çevrilməkdədir. Buna görə də ali və orta ixtisas təhsili müəssisələri hami təşkilatlarla birgə innovativ layihələrin hazırlanmasına və qəbuluna diqqəti artırmalıdırlar. Ali Məclis Aparatının aid şöbəsi "Startap Naxçıvan" portalı vasitəsilə layihələrin qəbuluna və istiqamətləndirilməsinə nəzarət etməli, portalın funksiyaları və işləmə mexanizmi barədə ali və orta ixtisas təhsili müəssisələri ilə birgə təqdimatlar keçirməli, portalın işlək fəaliyyəti təmin olunmalıdır.

Diqqətə çatdırılmışdır ki, 2018-2019-cu tədris ilinin qəbul imtahanlarının nəticələrinə görə muxtar respublikanın ali təhsil müəssisələrinin 1975 plan yerindən 269-u və ya 14 faizi, orta ixtisas təhsili məktəblərinin 524 plan yerindən 33-ü və ya 6 faizi boş qalmışdır. Müasirləşən cəmiyyətdə qazanılan bilik və bacarıqlar insan kapitalının əsas iqtisadi resursudur. Yüksəkkeyfiyyətli təhsil əmək bazarının tələblərinə cavab verən peşəkar kadrlar hazırlayır, öz potensialını inkişaf etdirərək məhsuldarlığı artırmaq imkanı verir, daxili və xarici sərmayədarlar üçün münbit şərait yaradır. Ali və orta ixtisas təhsili müəssisələri muxtar respublikanın əmək bazarının tələblərinə uyğun qəbul həyata keçirməli, proqnozlaşdırma gələcək inkişafa və iqtisadi tərəqqiyə hesablanmalıdır. Buna görə də Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ali və orta ixtisas təhsili müəssisələri və Ali Məclisi Aparatının müvafiq şöbəsi ilə birgə qəbul planlarını son illərin qəbul nəticələrinə görə təhlil etməli, verilən ixtisaslar muxtar respublikanın tələbatını tam ödəməli, ali və orta ixtisas təhsili müəssisələrində eyni ixtisaslar üzrə kadr hazırlığı aparılmalıdır. Təhsil sahəsində atılan addımlar gələcəyin perspektivləri üzərində köklənməli, kəmiyyətə deyil, keyfiyyətə yönəldilməlidir. 2019-2020-ci tədris ilində qeyd olunan istiqamətlərdə fəaliyyət daha da gücləndirilməli, növbəti tədris ili üçün yeni inkişaf perspektivləri müəyyən olunmalıdır.

"Muxtar respublikada təhsilin inkişafı beynəlxalq aləmə inteqrasiya, elmi-tədqiqat işlərinin səviyyəsinin yüksəldilməsi, yüksəkixtisaslı kadr hazırlığı işinə müasir yanaşmanı əhatə etməklə ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu təhsil siyasətinə əsaslanır", – deyən Ali Məclisin Sədri çıxışını ulu öndərin fikirləri ilə tamamlamışdır: ***"On illərlə əldə etdiyimiz təhsil prinsipləri gözlənilməli və inkişaf etdirilməlidir. Əgər biz bu yolla gedəriksə, qısa bir zamanda Azərbaycanda təhsil sistemini dünya standartlarına çatdıra bilərik".***

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



**Naxçıvan Muxtar Respublikası-95**

# Qədim Oğuz yurdu Naxçıvan – keçmişdən bu günə şanlı yol

Məlumdur ki, Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi illərdə çətin daxili və xarici amillərlə qarşılaşdığından Naxçıvana istənilən səviyyədə diqqət yetirə bilməmişdir. Bundan istifadə edən erməni daşnakları bölgəyə ardı-arası kəsilməyən basqınlar etmiş, əhalini qorxu və vahimə içərisində saxlamış, onları soyqırıma məruz qoymuş, Naxçıvanı azərbaycanlılardan təmizləməyə çalışaraq onu "böyük Ermənistan"a qatmaq istəmişlər. Bölgənin təhlükəsizliyini təmin etmək və ermənilər tərəfindən işğalına yol verməmək üçün Araz-Türk Respublikası yaradılmışdır. Tarixi tədqiqatlarda Araz-Türk Respublikasının yaranma tarixi və yeri mübahisəlidir. Fikrimizcə, bir sıra məntiqi mülahizələri, tarixi hadisələrin təhlilini əsas götürsək, Araz-Türk Respublikasının 1918-ci il noyabrın 3-də yaradıldığını təsdiq edə bilərik. Araz-Türk Respublikası qısa müddət fəaliyyət göstərməsinə baxmayaraq, bölgənin taleyində mühüm rol oynamaqla Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyünü təmin etmişdi. O, Naxçıvan əhalisinin qüvvələrinin düşmənlərə qarşı mübarizə üçün birləşdirilməsində mühüm rol oynamaqla yanaşı, bölgənin ermənilər tərəfindən işğal edilməsinə imkan verməmişdir. Araz-Türk Respublikası dövründə əldə edilmiş nailiyyətlər təkcə o dövr üçün yox, Naxçıvan bölgəsinin taleyi, bu günü və gələcəyi üçün də çox böyük əhəmiyyətə malikdir.

1920-ci il noyabrın 29-da Ermənistanda bolşevik hakimiyyəti yaradıldı. Bu münasibətlə Azərbaycan Hərbi İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə bəyanatla çıxış etdi. Bəyanat Rusiyanın diktəsi ilə yazılmışdı və "iki sovet respublikası arasında ərazi mübahisələrinin" Azərbaycanın milli mənafeyinə zidd şəkildə həll edilməsinə yönəlmişdi. Bəyanatda deyilirdi: " Bundan sonra heç bir ərazi məsələsi əsrlərboyu qonşu olan iki xalqın qanının tökülməsinə səbəb ola bilməz. Zəngəzur və Naxçıvan qəzaları Sovet Ermənistanının ayrılmaz hissəsidir. Dağlıq Qarabağın zəhmətkeş kəndlilərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir. Zəngəzur ərazisində bütün hərbi əməliyyatlar dayandırılır. Sovet Azərbaycanının bütün qoşunları oradan çıxarılır".

Azərbaycan İnqilab Komitəsinin bəyanatı Naxçıvan və Zəngəzur müsəlman əhalisinin güclü narazılığına səbəb oldu. Ermənilərin alçaq niyyətlərinə bələd olan Naxçıvan əhalisi diyarın Azərbaycandan qoparılmasına qarşı etiraz etdi. Bu bəyanat Türkiyə nümayəndələrinin də etirazı ilə qarşılandı. Vəziyyətin kəskinləşdiyini görən Azərbaycan rəhbərliyi Behbud ağa Şahtaxtinskini Naxçıvana göndərdi. Naxçıvan əhalisi ilə görüşlər zamanı Behbud ağa Şahtaxtinski açıqca demişdi: "Siz torpağınızla birlikdə öz müstəqilliyinizi saxlamaq istəyirsinizsə, burada istinad edə biləcəyiniz yeganə qüvvə Türkiyə qoşunlarıdır. Xalq bu qoşunların ətrafında sıx birləşməlidir. Sizin müstəqilliyinizi və torpağınızı yalnız onlar qoruyacaqlar və sizi ağır fəlakətdən xilas edəcəklər". Behbud ağa Şahtaxtinskinin keçirdiyi mitinqlərdə əhalinin böyük əksəriyyəti Naxçıvanın Azərbaycan SSR-in himayəsində müstəqil sovet respublikası kimi təşkil edilməsi arzusunda olduqlarını bildirmişdi. Ermənistan Respublikası Naxçıvan əhalisinin iradəsi qarşısında dura bilməyib diplomatik fənd işlətdi, Naxçıvanı 1920-ci il 28 dekabr bəyanatı ilə müstəqil sovet respublikası kimi tanıdığını bildirdi və daşnakların ona qarşı ərazi iddialarından imtina edildiyi göstərildi. Rusiya tərəfi də müəyyən siyasi səbəblərdən Naxçıvanın müsəlman əhalisinin iradəsi ilə hesablaşaraq Türkiyə tərəfinin təkliflərini, Azərbaycan bolşevik rəhbərliyinin bir sıra üzvlərinin mövqeyini nəzərə alaraq Naxçıvanın öz müqəddəratını həll etmək hüququnu tanımaq məcburiyyətində qaldı.

Naxçıvan ərazisini Azərbaycandan ayıran Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruri etdi. Ermənistan SSR hökuməti Naxçıvanı ilhaq etmək üçün yeni cəhdlər göstərdi. Lakin 1921-ci ilin yanvarında keçirilmiş rəy sorğusunda Naxçıvan əhalisinin 90 faizdən çoxu mahalın muxtariyyət statusunda Azərbaycan SSR-in tərkibində qalmasına səs verdi. Naxçıvanın Azərbaycanın tərkibində qalmasına çalışan Behbud ağa Şahtaxtinskinin fəaliyyətini xüsusi qeyd etməliyik. Onun Rusiya XKS-nin sədri V.İ.Leninə göndərdiyi 1921-ci il 1 mart tarixli teleqram-məktubunda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ, Zaqatala, Borçalı, Qarayazı düzü, Dağıstan, Şimali Qafqaz müsəlman xalqlarının milli tərkibi, sayı haqqında məlumat verilir. O, bu məktubda Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan narahatlığı çatdırmış, bu mahalların milli tərkibi və coğrafiyasına dair arayışları da əlavə etmiş, Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər vermişdi. Behbud ağa Şahtaxtinskinin təklifləri V.İ.Lenini maraqlandırmış və o, məsələnin RK(b)P MK Siyasi Bürosunda müzakirə edilməsi barədə göstəriş vermişdi.

Bu zaman Türkiyə nümayəndə heyəti Rusiya ilə danışıq aparmaq və müqavilə bağlamaq üçün Moskvaya gəlmişdi. Nümayəndə heyətinə əvvəlcə Bəkir Sami bəy, sonra isə Yusif Kamal bəy rəhbərlik edirdi. Fevralın 26-da başlayan danışıqlar martın 16-da "Dostluq və qardaşlıq haqqında" Moskva müqaviləsi ilə nəticələndi. Müqavilə 16 maddə və 2 əlavədən ibarət idi. Həmin gün RK(b)P MK Siyasi Bürosu Behbud ağa Şahtaxtinskinin təkliflərini bəyənərək Azərbaycanın tərkibində Naxçıvan Sovet Respublikası yaradılması haqqında qərar qəbul etdi. Moskva müqaviləsinin üçüncü maddəsinə əsasən Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusu verildi.

1969-cu ilin 14 iyulundan Azərbaycana rəhbərlik etməyə başlayan ümummilli lider Heydər Əliyev keçmiş Sovetlər Birliyində geridə qalan respublikanı qısa müddətdə geniş tərəqqi yoluna çıxarmış, dünyada tanıtdırmışdı. O dövrdə (1969-1982) sosial, siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində böyük uğurlar qazanılmış, iqtisadi potensial yaradılmış, əhalinin rifahı xeyli yüksəlmiş, elm, təhsil, səhiyyə, mədəniyyət güclü inkişaf prosesi keçmiş, milli şüurun oyanışı və dirçəldilməsi istiqamətində çox mühüm işlər görülmüşdü. Azərbaycan 1991-ci ildə qovuşduğu müstəqilliyin əsası xalqımızın böyük oğlu Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə qoyulmuşdur.

SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışdığı və Siyasi Büronun üzvü olduğu 1982-1987-ci illərdə də görkəmli siyasətçi və dövlət xadimi Heydər Əliyev bütün imkanlarını, gücünü və bacarığını Azərbaycanın tərəqqisinə yönəltmişdir. Aydın siyasi mövqeyə, böyük vətəndaş qeyrətinə malik ulu öndər Heydər Əliyev Bakıda da, Moskvada da zaman-zaman Azərbaycanın bədxahlarının təzyiqləri ilə üzləşmiş, lakin heç bir qüvvə onu tutduğu haqq yoldan, xalqa və yurda fədakar xidmət amalından döndərə bilməmişdir. 1969-cu ilin 14 iyulu kimi, 1990-cı ilin 22 iyul günü də Azərbaycanın müasir tarixinə qızıl hərflərlə yazılmışdır. 1990-cı ildə Azərbaycan ağır dövr yaşayırdı. Xalqımız məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Belə bir dövrdə – 1990-cı il iyul ayının 20-də Bakıya, iki gün sonra isə Naxçıvana gələn ümummilli liderimiz Heydər Əliyev xalqın xilaskarına çevrilmişdir. Bu gün ölkəmizin, o cümlədən muxtar respublikamızın sosial-iqtisadi, elmi və mədəni həyatında əldə edilən böyük nailiyyətlərin əsasında fəal yaradıcı gücə malik olan Heydər Əliyev milli dövlətçilik konsepsiyası, inkişafın Heydər Əliyev modeli dayanır. Ulu öndərimizin müəyyənləşdirdiyi inkişaf strategiyasının reallaşdırılması sayəsində 20 ildən artıqdır ki, Naxçıvan Muxtar Respublikasının tərəqqisi ilə fəxr edir, qürurlanırıq. Bütün bunlar həm də nümunəvi vətənpərvərliyin, dövlətçiliyə dərin sədaqətin, sabitliyin, sosial-iqtisadi yüksəlişin təmin edilməsinin, ən əsası isə rəhbər qayğısının nəticəsidir. Ulu öndər Heydər Əliyev çıxışlarından birində demişdir: ***"Naxçıvanda işlər lazımi səviyyədə gedir. Vasif Talıbovu bu vəzifəyə seçəndə mən onun çox xüsusiyyətlərini bilirdim. O, sübut etdi ki, Vətəninə, millətinə, xalqına sədaqətli olan adam yaşından asılı olmayaraq böyük işlər görə bilər".*** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan səfərlərindən birində demişdir: "***Heydər Əliyev öz Vətəninə, doğulduğu yerə – Naxçıvana gəldi. Onun gəlişi Naxçıvanı bəlalardan qurtardı. Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu".***

Siyasi fəaliyyətdə uğur qazanmaq üçün ictimai inam və etibar başlıca şərtdir. Yalnız öz fəaliyyətini xalqa layiqli xidmət prinsipi üzərində quran və bunu əməli işi ilə sübuta yetirən şəxslər yüksək ictimai etimada layiqdirlər. Elə bu səbəbdən də ictimai rəyə əsaslanan, insanların maraq və mənafeyinə xidmət edən siyasi fəaliyyət hər zaman dəstəklənir, təqdir olunur. Müstəqillik dövründə muxtar respublikada inkişafın mükəmməl modeli yaradılmışdır. Bu model dövlət müstəqilliyimizin və davamlı inkişafın qarantı olan Heydər Əliyev siyasi xəttinə sonsuz sədaqət və xalqa xidmət prinsipləri üzərində qurulmuşdur. Böyük fransız maarifçisi Volter vaxtilə yazırdı ki, "İş ideya üçün yaranmır – ideya iş üçün yaranır". Bu illərdə Naxçıvan Muxtar Respublikasının keçdiyi hərtərəfli inkişaf yolu da məhz xalq və dövlət üçün formalaşan ideyanın real həyatda təzahürünə çevrilmişdir. Bu gün Naxçıvanda hansı sahəyə baxsan, orada kompleks islahatların aparıldığının şahidi olarsan. Ötən dövr ərzində elə böyük nailiyyətlər əldə edilmişdir ki, bu uğurların blokada şəraitində qazanılması inanılmaz gerçəklikdir. Naxçıvanın inkişafdan intibaha qovuşması böyük siyasi xadim, dövlət adamı Ali Məclis Sədrinin düzgün idarəetməsinin nəticəsi, Vətən sevgisinin, yurd sahibliyinin misilsiz nümunəsidir.

**Samir ADIGÖZƏLLİ**
***İctimai-Siyasi Proseslər və Beynəlxalq Araşdırmalar Mərkəzinin rəhbəri***
***Kocaeli Haberci.com, Sanalbasın.com***

## İsti geyimlər hərbi hissəyə təhvil verilib

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev bildirib ki, sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə hərbi hissələr üçün yun corabların toxunması işinin davam etdirilməsi tapşırılıb. Qarşıya qoyulan tapşırığın icrası istiqamətində bu gün məhdud fiziki imkanlı şəxslər tərəfindən toxunmuş 1500 cüt yun corab və 200 yun şərf əsgərlərimizə hədiyyə edilir.

Qeyd olunub ki, bu kimi tədbirlər məhdud fiziki imkanlı şəxslərin məşğulluğunu təmin etməklə bərabər, onların maddi təminatlarının yaxşılaşmasına da müsbət təsir göstərir.



Əlahiddə Ümumqoşun Ordu Komandanının müavini, general-mayor Elman Orucov tədbirdə çıxış edərək bildirib ki, Naxçıvanda yerləşən ordu, birləşmə və hissələr hərtərəfli qayğı ilə əhatə olunub. Bu gün əsgərlərə isti qış geyimlərinin təqdim edilməsi də növbəti qayğının ifadəsi, xalq-ordu birliyinin təcəssümüdür.

Tədbirdə zabit Tural Xəlәfov, əsgər Vasif İsazadə hərbi qulluqçular adından göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Oxucu məktubları

*Minnətdarlıq*

## Peşəkar zabit kadrların hazırlanması üçün hər cür şərait yaradılıb



*Neçə illərdir ki, naxçıvanlılar az qala hər gün bir yeniliyin şahidi olurlar. Bu, muxtar diyarımızda yaradılan sabitliyin, nail olunmuş sosial-iqtisadi inkişafın bəhrəsi kimi hər birimizi ürəkdən sevindirir, qurub-yaratmaq əzmimizi yüksəldir. Bu inkişafın bütün sahələri əhatə etməsi isə göz qabağındadır.*

Ötən ilin mart ayında Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin "Orta İxtisas Polis Məktəbinin yaradılması haqqında" muxtar respublika rəhbərinin imzaladığı Fərman hamının ürəyincə oldu. Bu sahə üzrə təhsil almaq arzusunda olanlar bəzi çətinliklərlə qarşılaşır, başqa yerlərdə təhsil almaq üçün əlavə xərc çəkmək məcburiyyətində qalırdılar. Artıq onların arzuları reallığa çevrilib. Mənim oğlum Arzu Hüseynov da onların sırasındadır. O, hazırda həmin məktəbin I kursunda təhsil alır. Gənclərə böyük dövlət qayğısının daha bir ifadəsidir ki, məktəbdə təhsil ödənişsizdir. Məktəbi bitirdikdən sonra onlara zabit rütbəsi veriləcək və nazirliyin təbeliyində olan qurumlarda işlə təmin ediləcəklər.



Bu yaxınlarda mən bir valideyn kimi oğlumun təhsil aldığı məktəbdə oldum. Burada yaradılmış yüksək şərait məni də sevindirdi. Müasir tələblərə cavab verən tədris korpusu məktəbdə gənclərin peşəkar kadr kimi yetişmələrinə imkan verib. Onların məişət şəraiti də yüksək səviyyədə təmin edilib. Burada istifadəyə verilmiş yeməkxana və yataqxana, yataqxanada dərzi və bərbər otaqları, hamam və camaşırxana gənclərə yaxşı yaşamaq və mükəmməl təhsil almaq üçün geniş imkanlar açıb.

Xahiş edirəm ki, məktubumu dərc etməklə gənclərə yaradılmış belə şəraitə görə muxtar respublika rəhbərinə valideynlər adından dərin minnətdarlığımı çatdırasınız.

**İlman HÜSEYNOV**
***Şahbuz rayonu***

*Razılıq*

## Müəllim əməyi yüksək qiymətləndirilir



*Salam, hörmətli redaksiya!*

Artıq 19 ildir ki, müəlliməm, bu adı şərəflə daşıyır və bununla da fəxr edirəm. Bu gün müəllimlərimiz cəmiyyətimizin ən hörmətli təbəqəsidir. Dövlətimiz tərəfindən bu peşənin sahiblərinə hər zaman diqqət göstərilir. Onların əməyi daim qiymətləndirilir. Təhsilə göstərilən qayğını bölgələrimizdə, eləcə də Şərur rayonunda da görmək mümkündür. Bu gün rayonumuzda yeni məktəb binaları tikilir, müasir təhsil üçün hər cür şərait yaradılır. Məqsəd bundan ibarətdir ki, övladlarımız yaxşı təhsil alsınlar, bilikli, savadlı, eyni zamanda vətənpərvər gənclər kimi yetişsinlər. Biz müəllimlərin qarşısında duran ən vacib vəzifə də gənc nəslin hərtərəfli yetişdirilməsinə çalışmaqdır.

Muxtar respublikada dəqiq elmlər sahəsi üzrə kadrların hazırlanmasına artan tələbat nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 14 aprel tarixli Sərəncamı ilə yaradılan Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey istifadəyə verilən gündən burada şagirdlərə riyaziyyat fənnini tədris edirəm. Müəllimlər Günü ərəfəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun müvafiq sərəncamları ilə təhsilin inkişafında xidmətlərinə görə bir qrup təhsil işçisinin təltif edilməsi müəllim əməyinə verilən dəyərin daha bir göstəricisi idi. Həmin müəllimlərin sırasında olmağım mənə qürur yaşatdı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunmağımı 19 illik pedaqoji fəaliyyətimə verilən ən böyük qiymət kimi dəyərləndirir və gənc nəslin gələcəyin savadlı mütəxəssisi kimi hazırlanması yolunda bundan sonra da öz bilik və bacarığımı əsirgəməyəcəyimi bildirirəm.

**Murad HEYDƏROV**
***Şərur şəhəri***

## Təşkil edilən sərgi-satışlar bizə stimul verir



*Hörmətli redaksiya!*

Muxtar respublikamızda fiziki imkanları məhdud insanlara qayğı bir çox dünya ölkələrinə nümunə göstəriləcək səviyyədədir. Burada xüsusi qayğıya ehtiyacı olan sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası daim diqqət mərkəzində saxlanılır.

Məhdud fiziki imkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin fəaliyyət göstərməsi bu kateqoriyadan olan şəxslərin müalicə və reabilitasiyasının təşkilində mühüm əhəmiyyətə malikdir. Mən də bu mərkəzin imkanlarından təmənnasız istifadə edirəm. Bütün bunlar bizi həyata daha möhkəm tellərlə bağlayır.

Fiziki imkanları məhdud olan bəzi insanların hansısa işin qulpundan tutmağa, hansısa sənətlə məşğul olmağa həvəsi olmur. Bəzən isə ailələri onları cəmiyyətdən uzaqlaşdırır, qınaq obyektinə çevrilməməsi üçün dörd divar arasında saxlayırlar. Amma mən heç vaxt belə düşünmürəm. Dövlət qayğısını daim öz üzərimdə hiss etdiyim üçün çıxdığım yolda da əmin addımlarla irəliləyirəm. Artıq bir neçə ildir ki, bədii tikmə ilə məşğulam. Bu işə başlayanda başım ilmələrə elə qarışır ki, günün nə vaxt qurtardığından xəbərim olmur. Əl işlərimi mütəmadi olaraq keçirilən sərgi-satışlara çıxarmaq və orada satmaq imkanım olur. Növbəti belə sərgidə də əl işlərimə göstərilən maraq, onlardan çox sayda sata bilməyim mənə böyük mənəvi və maddi stimul oldu. Buna görə də sərgini təşkil edənlərə, göstərilən hərtərəfli qayğıya görə dövlətimizə minnətdarlığımı bildirirəm.

**Təranə ƏHMƏDLİ**
***Naxçıvan şəhəri***

## Kəndimizdə şəhər rahatlığı vardır



*Salam!*

*Bu məktubu sizə Babək rayonunun Kültəpə kəndindən yazıram. Bilirsiniz ki, Kültəpə Cənubi Qafqazın ən qədim yaşayış məskənlərindən biridir. Son illər kəndimizdə aparılan ekspedisiyalar da bunu bir daha təsdiq edir. Bu kəndin tarixi barədə son illər bir neçə kitab işıq üzü görüb.*

Artıq kəndimizdə tarixiliklə müasirlik vəhdət tapıb. Düşünürəm ki, Kültəpədə qurulub-yaradılanlar, tikilənlər, çəkilən rahat yol barədə bir vətəndaş kimi danışmağa, qürurla bəhs etməyə mənəvi haqqım var.

Əvvəla, onu deyim ki, sovet dönəmində, daha dəqiq desək, 1970-ci illərin ortalarına kimi Kültəpədə ibtidai məktəb fəaliyyət göstərirdi və şagirdlər təhsillərini başa vurmaq üçün 4-5 kilometrlik yolu qət edib qonşu Kərimbəyli kəndinə üz tuturdular. Sonrakı illərdə tikilən məktəb binası isə çoxdan yararsız hala düşmüşdü. İndi həmin tikilinin yerində saray kimi yeni təhsil ocağı inşa olunub. Övladları həmin məktəbdə təhsil alan bir valideyn kimi çox sevinirəm. Biz Kültəpə məktəbinin timsalında muxtar respublikada təhsilə, elmə, maarifə verilən yüksək diqqətin nəticəsini görürük.

Kəndimizdə muxtar respublika rəhbərinin iştirakı ilə kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası da istifadəyə verilib. Artıq uzaq məsafə qət etmədən tibbi xidmət almaq, alış-veriş etmək bizim üçün çox rahat olub. Rahat olan həm də yollarımızdır. Fikrimcə, bir kəndin, qəsəbənin, şəhərin inkişafını göstərən başlıca amil onun yoludur. Çünki bu yerlərə yolu düşən qonaqlarda ilk təəssürat da məhz yoldan başlayır.

Kəndimiz aran zonada yerləşdiyi üçün əkinçilik və maldarlıq, eləcə də fərdi təsərrüfatlar da yaxşı inkişaf edib. Burada bir neçə istehsal sahəsi və ailə təsərrüfatları yaradılıb. Əkin sahələrini genişləndirmək və məhsuldarlığa nail olmaq üçün 2016-cı ildə Ali Məclis Sədrinin iştirakı ilə Kərimbəyli və Kültəpə kəndlərində yeni suvarma şəbəkəsi də istifadəyə verilib. Torpaq mülkiyyətçiləri, ailə təsərrüfatçıları taxılçılıqla məşğul olur, ərzaq bolluğu yaradanların xəyalları artıq reallığa çevrilib. Çünki su həyatdır, su bolluqdur.

Qurulub-yaradılanlara görə bir valideyn, kənd sakini kimi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığımı bildirirəm.

**Vəli NURİYEV**
***Babək rayon Kültəpə kənd sakini***

## Həkim şəfqəti xəstələrə ümid bəxş edir

*Salam, hörmətli redaksiya!*

Mən ailəmlə birlikdə Sədərək rayonunun Qaraağac kəndində yaşayıram. Sadə həyat tərzi sürürük. İşdən sonrakı boş vaxtlarımızda şəxsi təsərrüfatımızla məşğul oluruq. Dövlətimizin bizə verdiyi pay torpağını əkib-biçir, mal-qaramızı saxlayırıq. Onlardan gələn əlavə gəlir sayəsində isə dolanışığımızı daha yaxşı təmin edirik.

Mənfur qonşularımızın əsassız ərazi iddialarının fəsadları bizim ailədən də yan keçməyib. 90-cı illərin hadisələri nəticəsində qardaşım Mehman Məmmədov əsəb sarsıntısı keçirdi. Nəticədə, bir müddət sonra xəstələndi. Bələliklə, bu xəstəlik onunla "yol yoldaşı" oldu. Aradan 25 ildən artıq müddət keçməsinə baxmayaraq, hələ də müalicəyə ciddi ehtiyacı var.

Onu da bildirim ki, qardaşım rayon Mərkəzi Xəstəxanasında hər ay müayinədən keçirilir. Həkimin yazdığı resept əsasında dərmanlar pulsuz verilir, müalicəsi aparılır. Həkimin məsləhət bildiyi vaxtda Naxçıvan şəhərində yerləşən Naxçıvan Muxtar Respublikası Psixi Xəstəliklər Dispanserinə göndərilir. Ötən ayın ortalarında Mehmanı növbəti müalicə üçün dispanserə apardım. Burada Fuad həkimlə görüşdük. Xoş, gülərüzlə qarşılama elə ilk baxışdan insana müsbət təsir edir. Həkim Mehmanla kef-hal etdi. Elə orada Mehmanın müalicəsinə, dərmanları qəbul etməsinə nəzarət edən tibb bacıları ilə də həmsöhbət oldum. İsti münasibət, həqiqətən, xoş sözlərə ehtiyacı olan belə xəstələrə dərmanlardan daha yaxşı təsir edir.

Dispanserin baş həkimi, həkim-psixiatr Rəşadət Nabatovla görüşdüm. Onunla həmsöhbət olduqdan sonra belə qərara gəldim ki, bu tibb müəssisəsində belə müsbət ab-havanın hökm sürməsi işə məsuliyyətlə yanaşan kollektivin sayəsindədir. Rəşadət həkim bəzən nahar belə etməyə imkanı olmasa da, buradakı xəstələrlə tək-tək maraqlanır. Onunla söhbət zamanı hər şeyin yaxşı olacağını bildirdi. Oradan ayrılanda ürəyim çox rahat idi. Çünki qardaşımın əmin əllərdə olduğunu, digər xəstələr kimi, Mehmanın da müalicəsində əllərindən gələn hər bir köməkliyi göstərdiklərini öz gözlərimlə gördüm.

Günü-gündən inkişaf edən Azərbaycanımızın gözəl guşəsi olan muxtar respublikamızda insanlara göstərilən qayğı bizi həm sevindirir, həm də qürurlandırır, böyük fəxr hissi duyuruq. Bütün bunlar üçün ailəm adından dövlətimizə minnətdarlığımı bildirirəm.

**Nadir MƏMMƏDOV**
***Sədərək rayon***
***Qaraağac kənd sakini***

## Ailəmiz dövlət qayğısı ilə əhatə olunub

*Hörmətli redaksiya!*

Bu gün mənim də ailəm muxtar respublikamızda yaşayan digər ailələr kimi dövlət qayğısını daim öz üzərində hiss edir. Diyarımızda aztəminatlı ailələrin məşğulluğunun təmin edilməsi istiqamətində görülən işlər davamlı xarakter alıb, həmin ailələrə dövlət qayğısının ifadəsi olmaqla yanaşı, bu qəbildən olan insanların həyat şəraitinin yaxşılaşdırılmasında da mühüm rol oynayır. Aztəminatlı ailələrin özünüməşğulluğunun təmin edilməsi ilə əlaqədar ailə əməyinə əsaslanan fərdi təsərrüfatların yaradılması da diqqətdə saxlanılır. Mən də bu qayğıdan bəhrələnənlərdən biriyəm.

Uzun müddət ünvanlı dövlət sosial yardımı alırdım və fərdi təsərrüfatımı qurmaq üçün müraciət etdiyimdə tez bir vaxtda ailəmə köməklik göstərildi. Yanıbalalı iribuynuzlu cins heyvan verildi. Artıq iki ildir ki, mütəmadi olaraq rayon baytarlıq idarəsi həkimlərinin baytarlıq xidmətindən istifadə edirik. Peyvəndləmə işləri qaydasında aparılır. Hər il bir bala almışıq, indi 3 baş mal-qaraya sahibəm.

Onu da deyim ki, övladlarımdan birinin sağlamlıq imkanları məhduddur. O, distant təhsilə cəlb edilib. Bu məktubu sizə ünvanlamaqda məqsədim qəzetiniz vasitəsilə ailəmə göstərilən qayğıya görə dövlətimizə minnətdarlığımı bildirməkdir.

**Pünhan HEYDƏROV**
***Şərur rayon Xələc kəndi***

## “Büdcəmizi anlayaq” layihəsi çərçivəsində növbəti təlim

Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki 12 nömrəli tam orta məktəbdə “Büdcəmizi anlayaq” layihəsi çərçivəsində növbəti təlim keçirilib.

50-dən çox şagirdin iştirak etdiyi təlimdə məktəbin direktoru Aynur Mustafayeva və Maliyyə Tədris Mərkəzinin direktoru Sevinc Cabbarova təlimin mahiyyəti və aktuallığı barədə məlumat veriblər.

Növbəti mərhələdə isə slaydlar vasitəsilə “Büdcəmizi anlayaq” mövzusunda Maliyyə Nazirliyinin Büdcə şöbəsinin müdir müavini – Yerli büdcələrin tərtibi və icmallaşdırılması sektorunun müdiri Sakinə Qəhrəmanovanın çıxışı dinlənilib. Təlimin interaktiv hissəsində Maliyyə Tədris Mərkəzinin təşkilati işlər üzrə baş mütəxəssisi Zəhra İsmayılova tərəfindən interaktiv oyun vasitəsilə şərti ailənin gəlir və xərcləri müqayisəli təhlil edilib.

Sonra məktəblilərin təqdimatı dinlənilib və səmərəli büdcə planlaşdırılması qaydaları ətrafında müzakirələr aparılıb. Bu mərhələdə 3 komanda iştirak edib. İnteraktiv mərhələdən sonra fəal iştirak edən komandalara Maliyyə Tədris Mərkəzinin sertifikatları təqdim olunub.

Qeyd edək ki, “Büdcəmizi anlayaq” layihəsinin muxtar respublikanın digər ümumtəhsil məktəblərində də keçirilməsi nəzərdə tutulub.

**Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti**

## Şahmat üzrə növbəti interaktiv dərs keçilib





İntellektual idman növü kimi şahmatın inkişafına muxtar respublikamızda ciddi diqqət yetirilir. Bu məqsədlə şəhər və rayonlarda şahmat məktəbləri tikilərək istifadəyə verilib, həmin məktəblərin maddi-texniki bazası gücləndirilib. Eyni zamanda müasir informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunmuş şahmat məktəblərində interaktiv dərslərin təşkili üçün hər cür şərait yaradılıb.

Ümumtəhsil məktəblərində şahmat dərslərinin tədrisi səviyyəsinin artırılması, uşaq-gənclər şahmat məktəblərinin fəaliyyətinin gücləndirilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi də diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Şahmat Federasiyası ilə birlikdə hər ay interaktiv şahmat məşğələlərinin təşkil edilməsi də bunun ifadəsidir.

Həmin tədbirlərin davamı olaraq dünən Naxçıvan Şahmat Mərkəzində “Açıq debütlərin izahlı təhlili” mövzusunda növbəti interaktiv dərs keçilib. Dərs beynəlxalq dərəcəli hakim, Naxçıvan Şahmat Mərkəzinin direktoru Emin Hacıyev tərəfindən aparılıb.

İnteraktiv şahmat məşğələsi saat $11^{00}$-da ümumtəhsil məktəblərinin şagirdləri üçün keçilib. Bununla yanaşı, $12^{00}$-da ümumtəhsil məktəblərində şahmat fənnini tədris edən müəllimlər üçün “Elektron vəsaitlərdən istifadə” mövzusunda seminar, saat $15^{00}$-da isə “Siciliya müdafiəsi, oyunların təhlili” mövzusunda rayon şahmat məktəbləri ilə keçilən interaktiv dərsdə muxtar respublika şahmatçılarının oyunları təhlil edilib.

İnteraktiv dərs 200-dən artıq təhsil müəssisəsində şagird və müəllimlər, şahmat məktəblərində isə 200-dən çox şahmatçı tərəfindən elektron lövhə vasitəsilə izlənilib. İnteraktiv dərs zamanı şahmatçıları maraqlandıran suallar cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

## Qardaş ölkənin universitet futbol komandası ilə yoldaşlıq görüşü



*Naxçıvan Dövlət Universiteti ilə Qars Qafqaz Universitetinin futbol komandaları arasında yoldaşlıq matçı keçirilib.*

Əvvəlcə Azərbaycanın Qars şəhərindəki Baş konsulu Nuru Quliyev başda olmaqla, ümummilli liderimizin Qars şəhərində əzəmətlə ucalan büstü ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Naxçıvan Muxtar Respublikasının 95 illiyi münasibətilə keçirilən matçda əvvəlcə hər iki ölkənin Dövlət himnləri səsləndirilib. Azərbaycanın Qars şəhərindəki Baş konsulu Nuru Quliyev, Qars Qafqaz Universitetinin rektoru, professor Hüsnü Kapı, Naxçıvan Dövlət Universitetinin Tədris və tərbiyə işləri üzrə prorektoru, dosent Rafiq Rəhimov universitetin müəllim, tələbə kollektivi ilə birgə Abamüslüm Güvən adına stadionda keçirilən yarışı izləyiblər. Gərgin mübarizə şəraitində keçən yoldaşlıq görüşü ev sahiblərinin 2:0 hesablı qələbəsi ilə başa çatıb.

Universitetin qonaq evində hər iki ölkənin nümayəndələri bir-birinə hədiyyələr təqdim edib. Naxçıvan Dövlət Universitetinin Tədris və tərbiyə işləri üzrə prorektoru, dosent Rafiq Rəhimov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinin qeyd edilməsi ilə bağlı Tədbirlər Planının təsdiq edilməsindən və ilboyu bu münasibətlə keçirilən tədbirlərdən danışıb. Prorektor hər iki ölkə arasındakı qardaşlıq münasibətlərinə toxunub.

Qars Qafqaz Universitetinin rektoru, professor Hüsnü Kapı vurğulayıb ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Türkiyə üçün də hər zaman önəmli bir strateji məkandır. Naxçıvanın qədim tarixi olduğunu dilə gətirən rektor qeyd edib ki, Türkiyənin ulu öndəri Mustafa Kamal Atatürk Naxçıvanı “Türk dünyasının qapısı” adlandırıb. Rektor Hüsnü Kapı muxtariyyətin 95 illiyi münasibətilə bütün naxçıvanlıları təbrik edib.

**Səadət ƏLİYEVA**

*Xalq təqvimi*

## “Mihrican” bayramı, “qoçboranı” və “eltökən” dövrü

*Oktyabr ayı ilin ən barlı-bərəkətli, həm də məsuliyyətli dövrlərindən biridir. Belə ki, bu dövrdə meyvə bağlarından alma, payız armudu, nar toplanılır. El adətinə görə, yığılan nübar (təzə yetişən məhsul. Buna bağbaşı da deyirlər) məhsuldan xonça tutular, nişanlı qızlara sovqat aparardılar. Sovqat qəbul edən yaşlı qohumlar isə “nübarlara çatasan”, – deyə minnətdarlıq edərdilər. Deyirlər ki, nübar məhsul yeyənin ürəyindən keçən dilək hasil olar.*

Bu dövrdə yığılan meyvələr saf-çürük edilir, zədəsi olmayanlar xüsusi yerlərə yığılıb qışa saxlanılır. İnsanlar bu fikirdədir ki, samanın, buğda-arpanın içərisində saxlanılan meyvə uzun müddət xarab olmaz. Bununla bağlı belə bir xalq mahnısı da var:

*Almanı atdım xarala,*
*Qaldı sarala-sarala.*

Əvvəllər taxılı yığmaq üçün ipdən toxunmuş böyük kisədən – xaraldan istifadə edirdilər. Belə rəvayət olunur ki, nişanlı qız toya tədarük edilən almanı xarala yığar, toyun yubanmasına narahat olaraq bu mahnını oxuyarmış. Əvvəllər toylar, adətən, payız aylarında keçirilərdi. Oktyabr ayında məhsulu toplayıb qurtaran, satılmaq üçün nəzərdə tutulan məhsulu, heyvanları satıb pul toplayan və iş-gücdən azad olan əhali payız toylarına başlayardı. Dahi şairimiz Məhəmmədhüseyn Şəhriyar “Heydərbabaya salam” poemasında payız toylarından yazırdı:

*Heydərbaba, kəndin toyun tutanda,*
*Qız-gəlinlər həna, piltə satanda,*
*Bəy gəlinə damdan alma atanda*
*Mənim də o qızlarında gözüm var,*
*Aşıqların sazlarında sözüm var.*

Əlbəttə, oktyabr ayında toplanan payız məhsulunun içərisində üzümü unutmaq olmaz. Bağlardan toplanan üzüm də çeşidlənir. Satılacaq üzüm bazara aparılır. Bəzi üzüm sortları qəlyadaş suyuna salınaraq mövüc, kişmiş hazırlanır. Milax üzümləri hənaqırma (hələqırma), ağaldərə (süd ağı) bir neçə gün sərilərək günə verilir. Xarab olan gilələr seçilib təmizlənir, milaxlara, tavanda çəkilən məftilə və ya ipə asılır. Həyətlərdəki cəviz, fındıq, badam ağacları çırpılıb yığılır və havaya verilib qurudulur ki, xarab olmasın.



Əvvəllər oktyabr ayında məhsul toplandıqdan sonra təmtərağı ilə heç də Novruz bayramından geri qalmayan “Mihrican” bayramı (məhsul bayramı) keçirilərdi. Bu bayram, demək olar ki, bütün türk xalqlarında təntənəli surətdə qeyd edilib. İnsanlar bu bayramda rəqs edər, onlara məhsul verən Tanrıya şükranlıq edərdilər. “Mihrican” bayramının keçirilmə vaxtı haqqında müxtəlif fikirlər vardır. Bəzi mənbələrə görə, bu bayram Avesta təqvimində yeddinci ay olan mehr ayının 16-cı günü keçirilərdi. Zərdüştlükdə həmin gün “mehr günü” adlanır və Tanrının Adəm Peyğəmbərə və Həvvaya ruh verdiyi gün hesab edilir.

Oktyabr ayında insanlar üçün həyati əhəmiyyət kəsb edən taxıl səpini dövrü başlayır. Ta qədimdən taxıl səpini xalq təqvimi və fenoloji müşahidələrə əsaslanaraq müəyyən edilib.

Təcrübəli əkinçilər yayda sürülmüş yeri səpinqabağı pərşum edir, sonra əkinə başlayardılar. Səpini aparan rəncbərlər isə bu dövrdə taxıla su verməyi vacib hesab edirdilər. Çünki payızda su içməyən taxıl yazda nə qədər su içsə də, məhsuldarlıq aşağı olurdu.

Bu dövrdə hələ yaylaqdan enməyən sürülər olardı. Bu vaxt bəzən havalar soyuyar, alçaq dağlıq ərazilərə yağan yağış yaylaqlarda qara çevrilər, küləklə yağdığı üçün buna “qoçboranı” dövrü deyərdilər. Yaylaqdakı soyuq küləklə yağan yağış və qara “eltökən”də deyirlər. Çünki soyuğa dözməyən sürüləri çobanlar arana endirirdilər. Adətən, sürülər üç-dörd mərhələ ilə qışlağa köçürülərdi.

Oktyabr ayında təsərrüfatda görüləcək işlərdən biri də turşuların qoyulmasıdır. Həmin aydan əvvəl qoyulan turşular istidə tez “gəlir” (hazır olur), vaxtında yeyilməzsə, yararsız hala düşür. Ona görə də sentyabr ayında qarşıda xeyir işləri, qırx, il kimi yas mərasimləri olanlar turşu qoyarlar. Turşuya vurulacaq komponentlərdən biri kökdür. Əvvəllər Naxçıvan bazarlarında kök ilboyu satılmazdı.



Xalq təqviminə uyğun olaraq arpa biçini dövründə ağaclara calaq edər, kök və payız turpunu səpərdilər. İyun ayının ortalarında səpilən kök sentyabr-oktyabr aylarında yerdən çıxarılardı.

Turşunun qoyulmasında istifadə olunan əsas tərəvəzlərdən biri də kal pomidordur. Oktyabr ayında havaların soyumasına, xüsusən gecələrin uzanmasına görə kolda pomidor yaxşı qızarmır. Ona görə də bu ayda pomidorun göyü, “kala”sı yığılıb bazara çıxarılır. Turşuya vurulan məhsullardan biri də kələmdir. Yetişmə müddətinə görə bir çox kələm növləri vardır. Turşu üçün ən yaxşı kələm gecyetişən sortlardır ki, onlar da oktyabr-noyabr aylarında satışa çıxarılır.

Təcrübəli bostançılar məhsul sovuşduqdan sonra sentyabr-oktyabr aylarında bostanı yenidən suvarırlar. Çünki özək hissəsi qurumayan qarpız kolları yenidən pöhrələyib cücərir və qarpız “tökür”. Dənəsi bərkiməyən bu qarpızlar ən sevilən turşu komponentidir. Hər kəs zövqünə uyğun olaraq turşuya ədvalar (göyərti), sarımsaq vurur. Bəzən turşuya göy lobya, baş soğan, acı bibər də əlavə edilir. Zövqə görə rəng almaq üçün turşuya mətbəx pazısı (qırmızı çuğundur) əlavə edənlər də var.

Bu dövrdə yayda qırxılıb yuyulan yunları əyirməyə və boyamağa başlayırlar. Bu da oktyabr ayında görülən ənənəvi qışa hazırlıqlardan biridir. Çünki qadınlar uzun qış dövründə növbə ilə hana uzadar, bir-birinə kömək edərək xalça, kilim, gəbə toxuyardılar. Nənələrimiz ip rənglərini də elə təbiətdən götürərdilər. Qırmızı rəngi boyaqotundan, sarı rəngi zirinc kötüyündən, südləyəndən (el arasında bu bitkiyə südlü biyan deyirlər), tünd-qəhvəyi rəngi cəviz yarpağından, soğan qabığından alardılar. İpi boyamaq üçün cəhrədə əyirilən “düycə”ləri açıb “kələf” edərdilər. Kələf ipin səkkiz rəqəmi formasında dolanmasıdır. Kələf etmək üçün bardaş qurub oturar, ipi çarpaz şəkildə dizə sarıyardılar. Böyük qablarda rəngi hazırlayar, ocaq üzərində qaynadardılar. Kələfi bir-iki dəfə qaynar rəngə basıb-çıxarar, qurumaq üçün sərərdilər. Bu proses çox tez bir zamanda başa gəldiyi üçün bəzən müəyyən vaxt tələb edən bir işi tələsdirdikdə indi də el arasında “boyaqçı küpü deyil ki”, – deyə cavab verirlər. Boyanmış kələflər quruldulduqdan sonra yuyularaq yenidən qurudulardı. Qurumuş kələflər açılıb yumaq edilərdi. Kələfi açan zaman iki nəfərdən biri kələfi qollarına keçirər, digəri isə açaraq yumaq edərdi.

Payızın bu dövründə ağacların yarpaqlarının saralmağa başlaması qışın yaxınlaşmasını xəbər verir, insanlara qış hazırlığını tez bir vaxtda yekunlaşdırmağı yada salır. Təbiət hadisələrini müşahidə etməklə ata-babalarımız qışın sərt və mülayim keçəcəyi haqqında da proqnoz vermişlər. Məsələn, “ağaclar yarpağını gec tökərsə, qış uzun və sərt keçəcək, çinar yarpağını başdan tökərsə, qış mülayim keçəcəkdir”, – deyirlər. Bir də atalar demişdir ki, sənin çinar ağacları ilə işin olmasın, qış hazırlığını gör.

**Zaleh NOVRUZOV**

**İtmişdir**

Əsədli Toğrul Məzahir oğlunun adına olan 0184497 nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 735